**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU**

*Əlyazması hüququnda*

**GÜNEL MOBİL qızı ASLANLI**

# AZƏRBAYCAN RESPUBLİKASINDA BƏDƏN TƏRBİYƏSİ VƏ İDMANIN İNKİŞAFINDA DÖVLƏT SİYASƏTİ (2003-2013-cü illər)

İxtisas: 5503.02 – Vətən tarixi

Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

# AVTOREFERATI

**BAKI – 2018**

***Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun «Əliyevşünaslıq» şöbəsində yerinə yetirilmişdir***

**Elmi rəhbər**:
AMEA-nın həqiqi üzvü,
Əməkdar elm xadimi,
Dövlət Mükafatı laureatı **Y.M.Mahmudov**

**Elmi məsləhətçi:**
Tarix üzrə elmlər doktoru **Ə.Q.Qasımov**

**Rəsmi opponentlər:**
Tarix üzrə elmlər doktoru **S.İ.Əliyeva**
Tarix üzrə fəlsəfə doktoru,
dosent **S.F.Ruintən**

**Aparıcı müəssisə:** Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Tarix" kafedrası

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun nəzdində 5503.02 – Vətən tarixi, 5502.01 – Ümumi tarix, 5507.01 – "Beynəlxalq münasibətlər tarixi" və 5509.01 – Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları ixtisasları üzrə tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcələri almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.161 saylı Dissertasiya Şurasının __________ 2018-ci il tarixli iclasında saat ___-da keçiriləcəkdir.

**Ünvan:** Az.1143, Bakı şəhəri, H.Cavid prospekti, 115

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivində tanış olmaq olar.

Avtoreferat « ___» _________2018-ci ildə göndərilmişdir.

D.01.161 Dissertasiya Şurasının
elmi katibi, tarix üzrə fəlsəfə doktoru, dosent **C.Ə.Bəhramov**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı**. Sosial mühitin mühüm sahələrindən olan bədən tərbiyəsi (fiziki tərbiyə) və idman şəxsiyyətin kamilləşməsinə, insanların sağlamlığının qorunmasına, əmək ehtiyatlarının yüksək səmərəliliyinin təmin edilməsinə xidmət etməklə ölkənin sosial-iqtisadi tərəqqisində mühüm rol oynayır. Fiziki tərbiyə və idman insan fəaliyyətinin müstəqil növünü təşkil edir. Onun müasir cəmiyyətdə yeri və rolu böyükdür. Fiziki tərbiyə insanın sağlam həyat tərzini formalaşdırır, bu da öz növbəsində ictimai münasibətlərə ciddi şəkildə müsbət təsir edir.

Qədim mədəniyyətə və dövlətçilik ənənələrinə malik olan Azərbaycanda idman hər zaman cəmiyyətin inkişafının əhəmiyyətli faktorlarından biri olmuşdur. Ümummilli lider Heydər Əliyev idmanın əhəmiyyətindən bəhs edərək qeyd edirdi: «İdman, bədən tərbiyəsi, hər bir sivilizasiyalı xalqda, ölkədə olduğu kimi, Azərbaycan xalqının da, Azərbaycan vətəndaşlarının da həyat tərzinin mühüm bir hissəsidir».[1]

İdmanın Azərbaycanda inkişaf mərhələləri yazılı qaynaqlarda və maddi mədəniyyət nümunələrində öz geniş əksini tapmışdır. Atlı idman oyunları, qol yarışı, güləş, şahmat kimi idman növləri Azərbaycanda hələ qədim dövrlərdə geniş yayılmışdır. Orta əsrlərdə də bu idman növlərinin inkişafı davam etmişdir. Yeni dövrdə, xüsusilə də sovet hakimiyyəti illərində Azərbaycanda bədən tərbiyəsinin və idmanın inkişafına xüsusi diqqət ayrılmış, 1950-ci illərin sonu – 1960-cı illərin əvvəllərində bu sahədə böyük canlanma başlamışdır. Ən böyük uğurlar başlıca olaraq güləş, boks, yüngül atletikanın müxtəlif növlərində olmuşdur.

Azərbaycanın zəngin idman ənənələri dövlət müstəqilliyi bərpa edildikdən sonra ölkədə bədən tərbiyəsinin və idmanın müxtəlif növlərinin inkişafı üçün geniş imkanlara yol açdı. Artıq bu sahə dövlətin daxili və xarici siyasətinin prioritet istiqamətlərindən biri kimi çıxış etməyə başladı.

1993-cü ilin iyununda Ulu öndər Heydər Əliyevin Azərbaycan Respublikasında ali hakimiyyətə qayıdışından sonra onun başçılığı altında ölkədə həyata keçirilən köklü islahatlar qısa müddətdə bütün sahələrdə olduğu kimi bədən tərbiyəsinin təşkilində və idmanın inkişafında da öz müsbət təsirini göstərdi. Heydər Əliyev məktəbinin layiqli davamçısı Prezident İlham Əliyevin də qeyd etdiyi kimi: «Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra idmana diqqət daim yüksək idi. Baxmayaraq ki, ölkəmiz müstəqilliyimizin ilk illərində iqtisadi cəhətdən o qədər də güclü deyildi, ölkədə çoxlu çətinliklər var idi, problemlər var idi... Buna baxmayaraq, xalqımızın Ümummilli lideri Heydər Əliyevin daim idmana, olimpiya hərəkatına diqqəti çox yüksək səviyyədə idi. Azərbaycanın iqtisadi cəhətdən ən çətin məqamlarında idmana xüsusi münasibət var idi. İdmançılar da bunu hiss edirdilər. Məhz bu diqqətin, qayğının nəticəsində Azərbaycanda idman

---

[1] Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Üçüncü kitab. Bakı, Azərnəşr, 1997, s. 227.

inkişaf edirdi».[1] Azərbaycan Respublikasında idmanın inkişaf perspektivlərini müəyyən edə biləcək dövlət siyasətinin və xüsusi idman strategiyasının hazırlanması ölkədə bədən tərbiyəsinin təşkilinin və idmanın inkişafının hüquqi-normativ bazasının yaradılmasını da sürətləndirdi: 1994-cü ildə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi yaradıldı və Prezidentin bu fərmanı ölkədə bədən tərbiyəsinin təşkilinin və idmanın inkişafının hüquqi-normativ bazasının yaradılması üçün hüquqi əsas yaratdı. Ulu öndər Heydər Əliyevin sərəncamı ilə 1995-ci ilin martında Azərbaycan İdman Fondu yaradıldı. 1997-ci ildə «Bədən tərbiyəsi və idman haqqında Azərbaycan Respublikasının Qanunu» qəbul edildi. Bu qanun ölkədə bədən tərbiyəsi və idman sahəsində münasibətləri tənzimləməyə, Azərbaycan Respublikasının idman siyasətini müəyyənləşdirməyə, xüsusi idman strategiyasının qurulmasına yönəlmiş hüquqi addım idi.

Heydər Əliyevin inkişaf və quruculuq xəttini uğurla davam etdirən Prezident İlham Əliyev ölkədə bədən tərbiyəsinin və idmanın inkişaf etdirilməsi sahəsində dövlət strategiyasını ardıcıl həyata keçirməyə başladı. Bu istiqamətdə İlham Əliyevin önəmli addımlarından biri 2004-cü ildə ölkədə bədən tərbiyəsi və idmanın gələcək illərdə sistemli inkişafını, bu sahənin hüquqi, iqtisadi, sosial bazasının möhkəmləndirilməsini təmin edəcək «Azərbaycan Respublikasında 2004-2008-ci illər ərzində bədən tərbiyəsi və idmanın inkişafının Dövlət Proqramı»nın qəbul edilməsi oldu. 2005-ci ildə İlham Əliyevin imzası ilə «Azərbaycan Gəncliyi Dövlət Proqramı (2005-2009-cu illər), (2011-2015-ci illər)» qəbul edildi. Proqram gənc nəslin Vətənə məhəbbət, Azərbaycan xalqının tarixinə, mədəni irsinə, dövlət dilinə və rəmzlərinə, milli-mənəvi dəyərlərinə hörmət ruhunda tərbiyə olunması, gənclərin hərbi vətənpərvərlik tərbiyəsi işinin gücləndirilməsi, gənclərin sahibkarlıq fəaliyyətinin dəstəklənməsi, peşə hazırlığının yüksəldilməsi və məşğulluğunun təmin edilməsi məqsədi ilə tədbirlərin həyata keçirilməsini nəzərdə tuturdu. Ölkənin ictimai-siyasi həyatında gənclərin fəal iştirakı, uşaq və gənclər üzrə təşkilatların formalaşması və inkişafı üçün şəraitin yaradılması da Dövlət Proqramının vacib müddəalarından biri idi.

Prezident İlham Əliyev 2006-cı ildə Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyinin əsasında Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin yaradılması haqqında fərman imzaladı. 2009-cu ildə qəbul edilən «Bədən tərbiyəsi və idman haqqında» Azərbaycan Respublikasının yeni Qanunu ölkənin təkcə bədən tərbiyəsi və idman sahəsində deyil, eləcə də sosial və iqtisadi həyatında, beynəlxalq əlaqələrində genişmiqyaslı müsbət dəyişiklikləri özündə əks etdirdi. «Bədən tərbiyəsi və idman haqqında» Azərbaycan Respublikasının qanunu, eləcə də ölkə prezidentinin müvafiq sərəncam və fərmanları Azərbaycan Respublikasında bədən tərbiyəsinin təşkili və idmanın inkişafı istiqamətində Dövlət Proqramının və Strategiyasının hüquqi bazasını yaratmış oldu.

İlham Əliyevin 1997-ci ildə Azərbaycan Milli Olimpiya Komitəsinin

---

[1] Əliyev İ.H. İnkişaf məqsədimizdir. Bakı, Azərnəşr, 2011, s.283.

rəhbərliyinə gəlməsi ilə ölkədə idmanın sürətli inkişafında və onun maddi-texniki bazasının vəziyyətində əsaslı dəyişikliklər dövrü başlandı. Ölkənin ayrı-ayrı şəhər və rayonlarında bədən tərbiyəsi və idmanın maddi-texniki bazasının inkişaf etdirilməsi, möhkəmləndirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması işi sürətləndirildi. Beynəlxalq standartlara cavab verən və beynəlxalq idman tədbirlərinin keçirilməsini mümkün edən olimpiya mərkəzləri və idman qurğularının inşası geniş vüsət aldı.

Azərbaycan bu gün beynəlxalq idman yarışlarında yüksək göstəricilər nümayiş etdirməklə yanaşı, mötəbər irimiqyaslı beynəlxalq idman tədbirlərinin yüksək səviyyədə təşkil olunaraq keçirildiyi ölkələrdən birinə çevrilmişdir. Bu idman və mədəniyyət hadisələrinin böyük siyasi əhəmiyyətini və Azərbaycan üçün önəmini nəzərə alan Prezident İlham Əliyev Heydər Əliyev Fondunun Prezidenti, Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi İcraiyyə Komitəsinin üzvü, YUNESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanı I Avropa Oyunları və IV İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitələrinin sədri təyin etdi. 2015-ci ildə I Avropa Oyunlarının, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarının Azərbaycanda uğurla keçirilməsi bunun bariz nümunəsi oldu.

Azərbaycan idmanı bu gün Azərbaycan Respublikasında diplomatiyanın bir vasitəsinə çevrilmişdir. Ölkədə keçirilən beynəlxalq idman yarışları Azərbaycan xalqının tolerantlığının, sülhpərvərliyinin və demokratiyasının ən ümdə göstəricisidir.

Yuxarıda sadaladığımız məsələlər Azərbaycan elmi üçün aktuallıq kəsb edir və hazırkı dissertasiya işi bu zərurətdən çıxış edərək yazılmışdır.

**Tədqiqatın xronoloji çərçivəsi** kimi 2003-2013-cü illər müəyyənləşdirilmişdir. Müasir Azərbaycan tarixinin bu dövrü ölkəmizdə bədən tərbiyəsi və idmanın inkişafında mühüm mərhələ sayılır. Artıq 1993-2003-cü illərdə Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikasında həyata keçirilən genişmiqyaslı siyasi, iqtisadi dəyişikliklər bədən tərbiyəsi və idmanın inkişafının əsasını qoymuşdu.

İlham Əliyevin 2003-cü ildə dövlət başçısı seçilməsi ilə Azərbaycan Respublikasında bədən tərbiyəsinin və idmanın inkişafının yeni mərhələsi başlamışdır. 2003-2013-cü illəri əhatə edən 10 illik xronoloji çərçivənin başlıca özəlliyi Azərbaycan idmanının möhkəm hüquqi əsaslar və maddi-texniki baza üzərində böyük uğurlara imza atmasında, beynəlxalq idmana daha iri miqyasda inteqrasiya etməsində idi. Eyni zamanda, bu mərhələdə Azərbaycan Respublikasında bədən tərbiyəsinin və idmanın kütləviləşdirilməsi sahəsində həyata keçirilən dövlət strategiyası ölkənin sosial və iqtisadi siyasətinin tərkib hissəsinə çevrilmişdir.

Bütün bunlar mövzunun seçilməsində, tədqiqatın xarakterinin və ümumi istiqamətlərinin müəyyənləşdirilməsində əsas rol oynamışdır. Dissertasiyada 2003-2013-cü illərdə Azərbaycan Respublikasında bədən tərbiyəsi və idman sahəsində dövlət siyasəti təcrübəsi ümumiləşdirilmiş, bu sahənin inkişafında ortaya çıxan problemlərin həllinə müəllifin yanaşmaları əsaslandırılmışdır.

**Mövzunun öyrənilmə səviyyəsi.** Mövzuya dair ədəbiyyatın təhlili və

sistemləşdirilməsi onu bir neçə qrupda təsnifləşdirməyə imkan vermişdir. Birinci qrupa araşdırılan mövzunun konseptual aspektlərini, ümumnəzəri məsələlərini əhatə edən əsərlər daxildir. Dissertasiya üzərində iş aparılarkən keçmiş SSRİ-də, Rusiyada və digər xarici ölkələrdə bədən tərbiyəsi və idmanın inkişafı təcrübəsinin öyrənilməsinə həsr edilmiş, tədqiqatımız üçün nəzəri və praktik əhəmiyyət kəsb edən əsərlərə müraciət edilmişdir.[1]

İkinci qrup ədəbiyyata bilavasitə Azərbaycanda bədən tərbiyəsi və idmanın inkişafına həsr edilmiş əsərlər daxildir. 1990-cı illərin ortalarından etibarən Azərbaycan idmanında başlayan dirçəliş, o cümlədən idmanın hüquqi-normativ bazasının yaradılması, maddi-texniki təminatının gücləndirilməsi və idmanın müxtəlif növlərinin inkişafı Azərbaycan idmanı ilə əlaqədar xeyli sayda məqalələrin, dərsliklərin, dərs vəsaitlərinin və monoqrafiyaların yazılmasını sürətləndirmişdir. Dissertasiyanın mövzu obyekti indiyədək tarixşünaslıqda araşdırılmamışdır: mövzu ilə əlaqədar ortaya çıxan əsərlər daha çox, publisistik məqalələr və sənədlər toplusu şəklindədir. Bununla yanaşı, həmin əsərlər Azərbaycan idmanının müasir mərhələdə uğurlarını əks etdirməklə, Azərbaycanda bədən tərbiyəsi və idman sahəsində

---

[1] Алексеев С.В. Международное спортивное право. Москва: Юнита-Дана, 2011, 892 с.; Алексеев С.В. Олимпийское право. Москва: Юнита-Дана, 2010, 685 с.; Барчуков И.С. Физическая культура и спорт: методология, теория, практика. Москва: Академия, 2009, 528 с.; Выдрин В.М. Спорт в современном обществе. Москва: Физкультура и спорт, 2007, 234 с.; Гуреева Е.А., Солнцев И.В. Оценка экономического эффекта от проведения крупных спортивных соревнований. Москва: Русайнс, 2014, 92 с.; Дубровский В.И. Спортивная физиология. Москва: Владос, 2009, 267 с.; Егоров А.Г. Олимпизм как социокультурный феномен // Ценности спорта. Выпуск 2. - Москва: Гуманитарный центр СпАрт, 1996. с. 43-48; Лубышева Л.И. Концепция формирования физической культуры человека. Москва: ГЦИФК, 1992, 120 с.; Сараф М.Я. Спорт в культуре XX века: становление и тенденции развития // Теория и практика физической культуры, 1997, № 7, с. 5-12; Холодов Ж.К., Кузнецов В.С. Теория и методика физического воспитания и спорта. Москва: Академия, 2004, 48 с.; Чикин С.Я. Физическое совершенствование человека. Москва: Медицина, 1976, 120 с.; Яковлев Б.П. Мотивация и эмоции в спортивной деятельности. Москва: Советский спорт, 2014, 312 с.; Arnold P.J. Democracy, Education and Sport // Journal of Philosophy of Sport, 2012, No16 (1), pp.100-110; Arnold P.J. Sport and Moral Education // Journal of Moral Education, 1994, No 23 (1), pp.75-89; Austin M.W. Sport as a Moral Practice // Royal Institute of Philosophy Supplement, 2013, No 73, pp.29-43; Bassey E.J. and Hentem P.F. Sport and Physical Health // Journal of Biosocial Science, 1981, No 13 (S7), pp.71-82; Bellieni C. Paralympics Should be integrated into main Olimpic Games // Sport, Ethics and Philosophy, 2015, No 9 (1), pp.5-82; Boxill C.M. Beauty, Sport and Gender // Journal of the Philosophy of Sport, 2012, No 11 (1), pp.36-47; Brent M.E. and L. Toogood A. Sport Psychology // The Encyclopedia of positive Psychology, 2009, pp.932-935; Edgar A. The Modernism of Sport // Sport, Ethics and Philosophy, 2013, No 7 (1), pp.121-139; Edgar A. Sport and Philosophy // Sport, Ethics and Philosophy, 2013, 7 (1), pp.10-29; Morgan W.J. Amateurism and professionalism as moral languages in search of amoral image for sport. Quest-Champaign III. 454, Nov 1993, pp. 470-493; Morgan W.J. (ed.) Ethics in Sport. Human Kinetics, Inc., 2007.

dövlət siyasətinin başlıca tərəflərini öyrənmək üçün mövzunun araşdırılmasına gərəkli olmuşdur.

Azərbaycan Respublikasında idmanın tarixi və müasir dövrdə fiziki tərbiyənin təşkili məsələləri A.Ə.Əliyev tərəfindən geniş araşdırılmışdır. Onun D.Quliyevlə həmmüəllifi olduğu «Bədən tərbiyəsi və idman tarixi» adlı ali məktəblər üçün yazdığı dərslik,[1] həmçinin, «Bədən tərbiyəsi və idmanın idarə edilməsi və iqtisadiyyatı»[2] və «Bədən tərbiyəsi və idman hərəkatının idarə edilməsi»[3] adlı monoqrafiyaları adı çəkilən sahədə elmi təhlillərin aparılması və faktoloji materialların toplanması istiqamətində uğurlu addım sayıla bilər.

A.Ə.Əliyevin Azərbaycan idmanı ilə yanaşı, beynəlxalq idmanın tarixi və inkişafı ilə bağlı tədqiqatları da vardır. Onun «Beynəlxalq Olimpiya Komitəsi prezidentləri» adlı əsərində[4] 1895-2006-cı illərdə Komitənin prezidentlərinin fəaliyyəti öz əksini tapmışdır. Onun «Yay Olimpiya oyunları tarixindən» adlı əsərində isə 1948-ci ildən 2008-ci ilədək oyunların tarixi öz əksini tapmışdır. Hər iki kitabdakı faktoloji materiallar dissertasiyanın yazılması üçün nəzəri-metodoloji əhəmiyyətə malikdir vardır.

D.Quliyevin «Müstəqil Azərbaycan Respublikasında bədən tərbiyəsi və idmanın inkişafı» adlı kitabında[5] müəllif 1991-2001-ci illərdə Azərbaycan respublikasında idmanın inkişafı məsələlərini araşdırır. Bu əsər dissertasiyanın xronoloji çərçivəsinə uyğun gəlməsə də, ölkədə idmanın 2000-ci illərdə inkişafının hüquqi və maddi-texniki bazasının öyrənilməsi baxımından əhəmiyyətli hesab etmək olar.

M.İ.Aslanlının «Fiziki mədəniyyət və mənəvi kamillik»[6] və «Fiziki yetkinlik və milli mənəviyyat» adlı[7] monoqrafiyalarında fiziki tərbiyənin ümumi nəzəri problemləri ilə yanaşı, Azərbaycan Respublikasında idmanın tarixi inkişaf yolu, fiziki mədəniyyətin vətəndaşların mənəviyyatının formalaşmasına təsiri, Azərbaycan ədəbiyyatında və yazılı tarixi qaynaqlarında idmanın əksi məsələləri araşdırılmışdır. Hər iki monoqrafiya fiziki tərbiyə və idmanın müasir dövrdə şəxsiyyətin formalaşmasına və ümumilikdə ictimai həyata təsirini üzə çıxarmışdır.

M.M.Əhmədov, M.Aslanov və V.Ə.Haciyevin həmmüəllifləri olduğu «Tarixi şəxsiyyətlərin nümunəsi tələbələrdə bədən tərbiyəsinə marağın

---

[1] Əliyev A., Quliyev D. Bədən tərbiyəsi və idman tarixi: Ali məktəblər üçün dərslik / Red.: S.Allahverdiyev, S.Hüseynov. Bakı: AzDBTİA, 2005, 35 s.

[2] Əliyev A., Əliyev V., Qasımov Ə. Bədən tərbiyəsi və idmanın idarə edilməsi və iqtisadiyyatı. Bakı: AzDBTİA, 2005, 228 s.

[3] Əliyev A. Yay Olimpiya oyunları tarixindən. Bakı: Müəllim, 2010, 212 s.

[4] Əliyev A. Beynəlxalq Olimpiya Komitəsinin prezidentləri. Bakı: 2006, 116 s.

[5] Quliyev D. Müstəqil Azərbaycan Respublikasında bədən tərbiyəsi və idmanın inkişafı. Bakı: Mütərcim, 2012, 214 s.

[6] Aslanlı M. Fiziki mədəniyyət və mənəvi kamillik. Bakı: Maarif, 1993, 248 s.

[7] Aslanlı M. Fiziki yetkinlik və milli mənəviyyat. Bakı: Maarif, 2000, 164 s.

vasitəsi kimi» adlı əsərdə[1] fiziki tərbiyənin və idmanın cəmiyyətdə oynadığı mənəvi rolu araşdırılmışdır. Bu məsələlər İ.H.Əsgərovun «Bədən tərbiyəsi və idman məşğələlərində yuxarı sinif şagirdlərinin vətənpərvərlik tərbiyəsi» adlı dissertasiyasının[2] da mövzu obyekti olmuşdur. Tədqiqatda müəllif idmanın gənclərin fiziki tərbiyəsində və mənəvi inkişafında rolunu araşdırmışdır.

F.Əliyev və N.Əsgərovanın müəllifi olduqları «Müstəqil Azərbaycanda bədən tərbiyəsi və idmanın tarixi» adlı monoqrafiyada 1991-2006-cı illərdə Azərbaycan idmanının inkişafı məsələləri öz əksini tapmışdır. Monoqrafiyada müstəqillik dövründə Azərbaycan idmanının yaşadığı problemlər, onların həlli yolunda görülən tədbirlər və aparılan dövlət siyasəti məsələləri araşdırılmışdır.[3]

Azərbaycanın müstəqillik dövrü tarixinə həsr edilmiş bir sıra əsərlərdə, xüsusən AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunda hazırlanmış "Heydər Əliyev" iki cilddə və iki cildlik «Azərbaycan Respublikasının tarixi (1991-2016-cı illər)» adlı fundamental monoqrafiyada Azərbaycan Respublikasında bədən tərbiyəsi və idmanın inkişafı ayrıca paraqraf kimi nəzərdən keçirilmişdir. Kitabın 1991-2003-cü illəri əhatə edən birinci cildində müvafiq mətni Ç.Hüseynzadə, 2003-2016-cı illəri əhatə edən ikinci cildində isə N.Məmmədzadə yazmışdır.

Kitab və monoqrafiyalarla yanaşı, publisistik məqalələrdə də Azərbaycan idmanının tarixi və müasir dövrdə idmançıların qazandıqların nailiyyətlərin xronikası öz əksini tapmışdır.[4] Azərbaycanın beynəlxalq aləmdə

---

[1] Əhmədov M.M., Aslanov M., Hacıyev V.Ə. Tarixi şəxsiyyətlərin nümunəsi tələbələrdə bədən tərbiyəsinə marağın vasitəsi kimi. Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 1989, 80 s.

[2] Əsgərov İ. Bədən tərbiyəsi və idman məşğələlərində yuxarı sinif şagirdlərinin vətənpərvərlik tərbiyəsi: ped. e. n. ... dis. Bakı, 2003, 135 s.

[3] Əliyev F., Əsgərova N. Müstəqil Azərbaycanda bədən tərbiyəsi və idmanın tarixi. Bakı: 2007, 187 s.

[4] Abiyev A. Azərbaycan dünyada idman ölkəsi kimi tanınır // «Respublika» qəz., Bakı, 2009, 5 mart; Abiyev A. Ölkəmizdə idmanın inkişafı Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır // «Respublika» qəz., Bakı, 2008, 10 oktyabr; Abiyev A., Babanlı T., Mehdiyev Q. Azərbaycan boksu 80 ildə: Sənədli publisistika. Bakı: 2004, 204 s.; Allahverdiyev M. İdmana yüksək diqqət və qayğı örnəyi // «Azərbaycan» qəz., 2009, 21 mart; Bayramov O. Azərbaycan idmançıları Olimpiya hərəkatında // «Respublika» qəz., 2012, 6 mart; Bayramov O. Olimpiya ilinə böyük ümidlərlə // «Xalq qəzeti», 2008, 13 yanvar; Bayramov O. Ötən il həmvətənlərimizin beynəlxalq yarışlarda 782 dəfə fəxri kürsüyə yüksəlmələri ölkədə idmana dövlət qayğısının daha bir parlaq təzahürüdür // «Xalq qəzeti», 2014, 23 yanvar; Cəfərov E. Azərbaycan beynəlxalq yarışlara ev sahibliyi edən ölkədir // «Azərbaycan» qəz., 2013, 13 yanvar; Cəfərov E. İdmanın sürətli yüksəliş dövrü // «Azərbaycan» qəz., 2011, 14 avqust; Cəfərov E. Ölkədə idman yüksələn xətlə inkişaf edir // «Azərbaycan» qəz., 2012, 19 yanvar; Əliyev V. Bədən tərbiyəsi və idman haqqında Qanun mühüm yeniliklərlə daha da təkmilləşdirilmişdir // «Respublika» qəz., 2009, 17 sentyabr; İsayev X. Gələcəkdə bizi daha böyük nailiyyətlər gözləyir: Londondan Bakıya zəfərlə // «Azərbaycan» qəz., 2012, 16

tanınmasında idmanın əhəmiyyəti, ölkədə idmanın inkişafında Heydər Əliyevin və onun siyasi irsinin davamçısı İlham Əliyevin rolu, idmanın inkişafı üçün ölkədə yaradılan şərait bu məqalələrin əsas mövzu obyektidir.

Birbaşa idman siyasəti ilə bağlı olmasa da, Azərbaycan Respublikasının daxili və xarici siyasəti, beynəlxalq əlaqələri məsələlərinə həsr olunmuş tədqiqatların da dissertasiya üçün nəzəri əhəmiyyəti olmuşdur. Onların sırasında Əli Həsənovun «Müasir beynəlxalq münasibətlər və Azərbaycan»[1] adlı dərs vəsaiti, Yaqub Mahmudovun «Heydər Əliyev ideyalarının zəfər yürüşü»[2] adlı monoqrafiyasında müstəqillik əldə etdikdən sonra Azərbaycan Respublikasının müasir dünyanın genişlənən inteqrasiya sisteminə qatılması prosesi bütün vacib tərəfləri, o cümlədən idman və mədəniyyət əlaqələrinin ətraflı təhlili verilmişdir.

Ə.Q.Qasımovun monoqrafiyası Heydər Əliyevin 1969-2003-cü illərdə Naxçıvanın ictimai-siyasi, iqtisadi, milli mənəvi inkişafı məqsədi ilə həyata keçirdiyi tədbirləri öyrənmək baxımından olduqca mühüm mənbədir. Zəngin qaynaqlar əsasında yazılmış bu əsərdə Naxçıvanın idman həyatı ilə bağlı bir sıra məqamlar da öz əksini tapmışdır.[3]

Bədən tərbiyəsi və idman sahəsinə həsr edilmiş ədəbiyyatın təhlili göstərir ki, araşdırılan mövzu ilə bağlı kifayət qədər əsərlər olsa da, bilavasitə bizim tərəfimizdən araşdırılan problem elmi ədəbiyyatda öz əksini tam tapmamışdır. Bunun əsas səbəblərindən biri tədqiqat obyektinin - 2003-2013-cü illərdə Azərbaycan Respublikasında bədən tərbiyəsi və idman sahəsində dövlət siyasəti probleminin xronoloji baxımdan qısa və nisbətən bizə yaxın tarixi dövrü əhatə etməsidir.

İstər Vətən, istərsə də xarici tarixşünaslıqda Azərbaycan Respublika-

---

avqust; İsayev X. Prezident İlham Əliyev Azərbaycanı yeni-yeni zəfərlərə aparır // «Xalq qəzeti», 2007, 1 dekabr; Kamalqızı R. Azərbaycan olimpiya hərəkatının təntənəsi // «Səs» qəz., 2012, 28 iyul; Quliyev D. Bədən tərbiyəsi və idman mütəxəssisləri hazırlayan ali məktəb // «Olimpiya dünyası» qəz., 2015, 25 oktyabr, s. 4-5; Mehdiyev A. Milli Olimpiya hərəkatı tarixində yeni səhifə. İdmançılarımız XXX London Yay Olimpiya Oyunlarında böyük uğura imza atdılar // «Azərbaycan» qəz., 2012, 15 avqust; Mehdiyev Q. Azərbaycan idmanının olimpiya zirvəsi. Milli Məclis, 2012, sentyabr-oktyabr, s.36-39; Miriyev A. Dünya Olimpiya hərəkatının fəal üzvü olan Azərbaycan Olimpiya Oyunlarını qəbul etmək üçün lazım olan iqtisadi və siyasi potensiala malikdir // «Yeni Azərbaycan» qəz., 2010, 18 iyun; Miriyev A. Prezident İlham Əliyev 2012-ci ili «İdman ili» elan edib. Dövlətin inkişafı, iqtisadiyyatın daha da güclənməsi və möhkəm dayaqlara əsaslanması idmanın da inkişafında həlledici rol oynayıb // «Yeni Azərbaycan» qəz., 2012, 18 yanvar; Rəcəbli H. İdman və bədən tərbiyəsi sosial siyasətin mühüm istiqamətidir. Kütləvi idman və Azərbaycan təcrübəsi // «Azərbaycan» qəz., 2012, 26-27 sentyabr; Şirinova A. İdman sahəsində dövlət siyasəti // «İki sahil», 2012, 16 oktyabr.

[1] Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: Azərbaycan, 2005, 752 s.

[2] Mahmudov Y.M. Heydər Əliyev ideyalarının zəfər yürüşü. Bakı: Təhsil, 2011, 608 s.

3 Ə.Q.Qasımovun «Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının inkişaf tarixi (1969-2003-cü illər)». Bakı «Turxan», NPB, 2013, 264 s.

sında fiziki tərbiyənin və idmanın inkişafı məsələləri, Azərbaycanda dövlətin idman siyasəti heç bir tədqiqatın konkret mövzu obyekti olmamış və kompleks şəkildə araşdırılmamışdır.

**Tədqiqatın mənbə bazası.** Hazırkı tədqiqatın geniş mənbəşünaslıq bazası mövcuddur. Onları şərti olaraq aşağıdakı kimi təsnif etmək olar:

1. Azərbaycan Respublikasında bədən tərbiyəsinin və idmanın inkişafı ilə bağlı qanunvericilik aktları: Bu qrupda Azərbaycan Respublikasının bədən tərbiyəsi və idman haqqında Qanunu, eləcə də araşdırılan problemləri özündə ehtiva edən digər qanunvericilik aktları toplanmışdır.

2. Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanları, sərəncamları, çıxışları, nitqləri, bəyanatları: Bu qrupda Azərbaycan Respublikasının Prezidentləri Heydər Əliyev[1] və İlham Əliyevin[2] çıxışları, nitqləri, bəyanatları, fərman və sərəncamları birləşdirilmişdir.

3. Nəşr olunmuş sənəd topluları: Bu sənədlər başlıca olaraq bədən tərbiyəsi və idmanla bağlı nəşr olunmuş hüquqi-normativ sənədlərdən ibarətdir. Onların sırasında Bədən tərbiyəsi və idmanla bağlı hüquqi sənədlər, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, qanunlar, dövlət proqramları, qərarlar və normativ aktlar, toplular dissertasiya üçün zəruri mənbə bazasını təşkil etmişdir.[3]

4. Dövri mətbuatda əksini tapmış idman xronikaları: Bu materiallar əsasən respublika əhəmiyyətli və beynəlxalq miqyaslı idman hadisələrinin xronikasını özündə əks etdirən dövri mətbuat materiallarından ibarətdir.[4]

5. Azərbaycanda bədən tərbiyəsi və idmanın inkişafını özündə əks etdirən statistik toplular.[5]

6. Azərbaycan Respublikasında idman və bədən tərbiyəsi sahəsində dövlət siyasətinin həyata keçirilməsi ilə bilavasitə məşğul olan Gənclər və İdman Nazirliyinin,[6] Milli Olimpiya Komitəsinin cari arxivlərinin mate-

---

[1] Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Çoxcildlik 1-46. 1997-2013.

[2] Əliyev İ.H. İnkişaf məqsədimizdir. Çoxcildlik 1-29. 2008-2016.

[3] Bədən tərbiyəsi və idmanla bağlı hüquqi sənədlər. Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, qanunlar, dövlət proqramları, qərarlar və normativlər (1994-2008-ci illər). Bakı: Avropa, 2008, 256 s.; Heydər Əliyev və Azərbaycan idmanı: Sənədli publisistika. Bakı: 2004,160 s.; 10 il öncə başlayan yol. Sənədli publisistika. Bakı: Azərbaycan Respublikası Gənclər və İdman nazirliyinin nəşri, 2007, 256 s.; İlham Əliyev və Azərbaycanda Olimpiya hərəkatı (1994-cü ildən başlayaraq): Tammətnli elektron materiallar məcmuəsi - Bakı: 2005 // http://files.preslib.az/site/olympia/gl1.pdf; Prezident İlham Əliyev və idmanımızın 5 ili: Sənədli publisistika /Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin nəşri. Bakı: 2008, 124 s.; Zirvəyə aparan yol. Azərbaycan Respublikası Prezidentinin idmanla bağlı nitqləri, çıxışları, qəbulları, görüşləri və müsahibələri (1993-2009-cu illər) /Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin nəşri. Bakı: Şərq-Qərb, 2009, 576 s.

[4] «İdman» qəzeti (müxtəlif illər)

[5] Azərbaycan Respublikasının statistik göstəriciləri. Bakı: Səda, 2003-2015-ci illər.

[6] Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi Cari Arxivi. Ümumi şöbənin 2003-2013-cü ilin materialları.

rialları ölkədə bu sahədə görülən işləri, toplanmış təcrübəni araşdırmaq baxımından mühüm əhəmiyyət kəsb edir.[1]

7. Ölkədə bədən tərbiyəsi və idmanla bağlı materialları özündə əks etdirən internet resurslar: Buraya Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, Gənclər və İdman Nazirliyinin, Milli Olimpiya Komitəsinin, digər nazirlik və idarələrin, milli idman federasiyalarının rəsmi saytları daxildir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın tarixşünaslıq təhlili göstərir ki, araşdırılan problem tam öyrənilməmişdir və daha geniş şəkildə işıqlandırılmaya ehtiyac vardır. İşin əsas məqsədi 2003-2013-cü illərdə Azərbaycan dövlətinin bədən tərbiyəsi və idman sahəsində siyasətinin əsas istiqamətlərini və nəticələrinin tədqiq edilməsidir. Dissertasiyada başlıca diqqət aşağıdakı vəzifələrin yerinə yetirilməsinə yönəlmişdir:

- Azərbaycan Respublikasında bədən tərbiyəsi və idmanın hüquqi bazasının yaradılması prosesini izləmək;
- Bədən tərbiyəsi və idmanın inkişafı üçün ölkədə yaradılan maddi-texniki bazanın möhkəmləndirilməsi istiqamətində həyata keçirilən dövlət siyasətini araşdırmaq;
- Azərbaycan Milli Olimpiya Komitəsinin fəaliyyətini tədqiq etmək, İlham Əliyevin Komitənin fəaliyyətində, həmçinin Olimpiya Hərəkatının genişlənməsində rolunu müəyyən etmək;
- Azərbaycanda bədən tərbiyəsi və idmanın müxtəlif növlərinin tarixi ənənələrini və 2003-2013-cü illər ərzində inkişafının başlıca tərəflərini öyrənmək;
- Azərbaycanda idmanın kütləviləşdirilməsi üçün dövlət siyasətinin başlıca vəzifələrini və əldə edilən nailiyyətləri göstərmək və vətəndaşların bədən tərbiyəsi və idmanla əhatə edilməsi sahəsində dövlət tədbirlərinin əhəmiyyətini müəyyən etmək;
- Tədris və məktəbəqədər tərbiyə müəssisələrində bədən tərbiyəsi və idmanın təşkili işinin dövlətin idman siyasətində aparıcı yerlərdən birini tutduğunu sübut etmək, bu təşkilati işin başlıca nəticələrini göstərmək;
- Azərbaycan idmançılarının 2003-2013-cü illərdə başlıca beynəlxalq idman yarışlarında iştirakı və nailiyyətlərini göstərmək;
- Bədən tərbiyəsi və idman sahəsində dövlətin aparmış olduğu uğurlu siyasətin nəticəsi kimi Azərbaycanın beynəlxalq idman yarışlarının mərkəzi kimi rolunu müəyyən etmək, beynəlxalq idman hadisələrində fəal iştirakın Azərbaycan üçün siyasi dividentlərini göstərmək;
- Bədən tərbiyəsinin və idmanın cəmiyyət həyatında mədəni, sosial, iqtisadi və siyasi baxımdan böyük rol oynadığını Azərbaycandakı idmanın inkişafı nümunəsində sübut etmək.

**Dissertasiya işinin metodoloji əsası**. Tədqiqatın nəzəri-metodoloji əsasını tarix elmində geniş yayılmış olan ümumi araşdırma üsulları təşkil edir;

[1] Azərbaycan Milli Olimpiya Komitəsi Cari Arxiv. Ümumi şöbənin materialları 2003-2013-cü illərin materialları.

bunlar elmi analiz və sintez, mənbə materiallarının müqayisəli təhlili, araşdırılan problemə aid materialların təhlili gedişində zəruri olan deduksiya, analogiya, mətbuat materiallarının kontent-təhlili, müşahidə və proqnozlaşdırma metodları olmuşdur. Tədqiqatın predmeti ilə bağlı elmi və publisistik araşdırmalardakı ümumiləşdirmələr, mühakimələr və elmi müddəalar da dissertasiyanın nəzəri-metodoloji əsasını təşkil etmişdir. Dissertasiyanın empirik bazasını isə yuxarıda icmalını verdiyimiz sənədli materiallar təşkil etmişdir.

**Tədqiqatın elmi yeniliyi**. Azərbaycan Respublikasında 2003-2013-cü illərdə bədən tərbiyəsi və idmanın inkişafında dövlət siyasəti məsələləri tarixşünaslıqda indiyədək tam araşdırılmamışdır. Dissertasiyada ilk dəfə olaraq Azərbaycan Respublikasında bədən tərbiyəsi və idmanın hüquqi bazasının yaradılması məsələləri araşdırılır, bu məsələlərlə bağlı müvafiq qanunvericilik aktları, dövlət proqramları, digər rəsmi sənədlər, sərəncam və fərmanlar elmi cəhətdən təhlil olunur;

- Bədən tərbiyəsi və idmanın inkişafı üçün Azərbaycan Respublikasında yaradılan maddi-texniki bazanın möhkəmləndirilməsi istiqamətində həyata keçirilən dövlət siyasəti araşdırılır;
- Azərbaycan Milli Olimpiya Komitəsinin fəaliyyəti tədqiq edilir, İlham Əliyevin Komitənin fəaliyyətində, həmçinin Olimpiya Hərəkatının genişlənməsində rolu müəyyən edilir. Milli Olimpiya ümumdünya olimpiya hərəkatının inkişafında yeri və rolu təhlil edilir;
- Azərbaycanda bədən tərbiyəsi və idmanın müxtəlif növlərinin tarixi ənənələri göstərilir, 2003-2013-cü illər ərzində ayrı-ayrı idman növlərinin inkişafının başlıca tərəfləri öyrənilir;
- Azərbaycanda idmanın kütləviləşdirilməsi üçün dövlət siyasətinin başlıca vəzifələri göstərilir və bu vəzifələrin yerinə yetirilməsində əldə edilən nailiyyətlər sadalanır, vətəndaşların bədən tərbiyəsi və idmanla əhatə edilməsi sahəsində dövlət tədbirlərinin əhəmiyyəti müəyyən edilir;
- Azərbaycandakı tədris və məktəbəqədər tərbiyə müəssisələrində bədən tərbiyəsi və idmanın təşkili işinin dövlətin idman siyasətində aparıcı yerlərdən biri olduğu sübut edilir, bu sahədə dövlət siyasətinin başlıca uğurları göstərilir;
- Azərbaycan idmançılarının 2003-2013-cü illərdə başlıca beynəlxalq idman yarışlarında və tədbirlərində iştirakının xronikası verilir və nailiyyətləri göstərilir;
- Ölkədə bədən tərbiyəsi və idman sahəsində dövlətin aparmış olduğu uğurlu siyasətin nəticəsi kimi Azərbaycanın beynəlxalq idman yarışlarının mərkəzi kimi rolu müəyyən edilir, beynəlxalq idman hadisələrində fəal iştirakı Azərbaycan üçün iqtisadi əhəmiyyəti və siyasi dividentləri göstərilir;
- Azərbaycanda idmanın inkişafı nümunəsində bədən tərbiyəsinin və idmanın cəmiyyət həyatında mədəni, sosial, iqtisadi və siyasi baxımdan böyük rol oynadığı sübut edilir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti** Dissertasiyada 2003-2013-cü illər ərzində Azərbaycanda idman sahəsində həyata keçirilən dövlət

siyasəti tədqiq edilmiş, çoxlu sənədlər və araşdırmalar tədqiqata cəlb edilmişdir. Dissertasiyada toplanmış faktoloji materiallar, bu materialların əsasında aparılan təhlillər, irəli sürülən mülahizələr və mühakimələr, əldə edilən elmi nəticələr mühüm praktik əhəmiyyətə malikdir. Dissertasiyadakı materiallardan Azərbaycan idmanının tarixi və idman strategiyası ilə bağlı sənədlər və məqalələr toplusu, monoqrafiyalar, bukletlər, stendlər və digər elmi əsərlərin və vəsaitlərin hazırlanmasında istifadə oluna bilər. Dissertasiyadan həmçinin, Azərbaycan Respublikasında idman siyasəti ilə bağlı mühazirələrin oxunması, mühazirə mətnlərinin və dərs vəsaitlərinin tərtibində də istifadə edilə bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiyadakı ayrı-ayrı məsələlər üzrə müxtəlif elmi-nəzəri konfranslarda məruzələr edilmiş, 13 elmi məqalə dərc olunmuşdur:

Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu «Əliyevşünaslıq» şöbəsində yerinə yetirilmiş, şöbənin 2016-cı il 4 iyul tarixli iclasında müzakirə edilərək ikinci müzakirəyə təqdim edilmiş, 28 dekabr 2016-cı ildə ikinci dəfə müzakirəsi keçirilərək müdafiəyə təqdim edilmişdir.

**Dissertasiyanın quruluşu**. Dissertasiya giriş, 7 paraqrafı ehtiva edən üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın «Giriş» hissəsində mövzunun aktuallığı, xronoloji çərçivəsi əsaslandırılmış, mövzunun öyrənilmə səviyyəsi araşdırılmış, mənbə bazası təhlil olunmuş, tədqiqatın məqsəd və vəzifələri müəyyənləşdirilmiş, metodoloji əsası aydınlaşdırılmış, elmi yenilikləri, nəzəri və praktik əhəmiyyəti göstərilmişdir.

Dissertasiya işinin birinci fəsli **«Azərbaycan Respublikasında bədən tərbiyəsi və idman sahəsində hüquqi və maddi-texniki bazanın yaradılması və inkişafı»** adlanır və üç yarımfəsildən ibarətdir. Birinci yarımfəsildə ölkədə bədən tərbiyəsinin təşkilinin və idmanın inkişafının hüquqi-normativ bazasının yaradılmasından bəhs edilir. Qeyd edilir ki, Azərbaycan Respublikasında bədən tərbiyəsinin təşkili və idmanın inkişafı üçün hüquqi bazanın yaradılması müstəqilliyini bərpa etmiş dövlətin sosial siyasətinin tərkib hissəsi idi. Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə bədən tərbiyəsi və idmanın inkişafı sahəsində də kardinal dəyişikliklər başlandı. Ölkəmizdə idmanın inkişaf perspektivlərini qura biləcək dövlət siyasətinin və xüsusi idman strategiyasının hazırlanması bədən tərbiyəsinin təşkilinin və idmanın inkişafının hüquqi-normativ bazasının yaradılmasını da şərtləndirdi.

Azərbaycan Respublikası Prezidentinin 26 iyul 1994-cü il tarixli, 179 saylı fərmanı və Azərbaycan Respublikası Milli Məclisinin 26 iyul 1994-cü il tarixli, 861 saylı qərarı ilə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi yaradıldı. Prezidentin bu fərmanı ölkədə bədən tərbiyəsinin təşkilinin və idmanın inkişafının hüquqi-normativ bazasının yaradılmasının ilk

addımı oldu və növbəti hüquqi-normativ sənədlər üçün özül yaratmış oldu.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 23 dekabr 1997-ci il tarixli 417-İQ saylı «Bədən tərbiyəsi və idman haqqında Azərbaycan Respublikasının Qanunu» ölkədə bədən tərbiyəsi və idman sahəsində münasibətləri tənzimləməyə, Azərbaycan Respublikasının idman siyasətini müəyyənləşdirməyə, xüsusi idman strategiyasının qurulmasına yönəlmiş hüquqi addım idi.[1] «Qanun»un vəzifələri vətəndaşların bədən tərbiyəsi və idmanla məşğul olmaq hüququnu təmin etməkdən; bədən tərbiyəsi və idman sisteminin fəaliyyəti və inkişafı üçün hüquqi təminat yaratmaqdan; fiziki və hüquqi şəxslərin bədən tərbiyəsi və idman sahəsindəki hüquqlarını, vəzifələrini və məsuliyyətini müəyyən etməkdən, bu sahədə yaranan münasibətləri tənzimləməkdən ibarət idi.[2] 2001-ci ildə Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyinə çevrildi. Ölkə Prezidentinin 18 sentyabr 2001-ci il tarixli 528 saylı fərmanı ilə isə Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyinin əsasnaməsi təsdiq edildi.[3]

2004-cü ildə ölkədə bədən tərbiyəsi və idmanın gələcək illərdə sistemli inkişafını təmin edəcək «Azərbaycan Respublikasında 2004-2008-ci illər ərzində bədən tərbiyəsi və idmanın inkişafının Dövlət Proqramı» təsdiqlənmişdir.

2005-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanmış «Azərbaycan Gəncliyi Dövlət Proqramı» (2005-2009-cu illər) ölkəmizdə bədən tərbiyəsinin təşkili və idmanın inkişafı üzrə hüquqi bazanın yaradılmasında mühüm rol oynadı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 30 yanvar 2006-cı il 359 saylı fərmanı ilə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Gənclər İdman və Turizm Nazirliyi ləğv edildi. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin əsasında Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyinin əsasında isə Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi yaradıldı. Azərbaycan Respublikası Prezidentinin 18 aprel 2006-cı il tarixli 392 saylı fərmanı ilə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin əsasnaməsi təsdiq edildi.[4]

---

[1] Bədən tərbiyəsi və idmanla bağlı hüquqi sənədlər. Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, qanunlar, dövlət proqramları, qərarlar və normativlər (1994-2008-ci illər). Bakı: Avropa, 2008, s.8-19.

[2] Bədən tərbiyəsi və idmanla bağlı hüquqi sənədlər. Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, qanunlar, dövlət proqramları, qərarlar və normativlər (1994-2008-ci illər). Bakı: Avropa, 2008, s.8.

[3] Yenə orada, s.43.

[4] Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə Azərbaycan Respublikasının Prezidentinin Fərmanı // «Azərbaycan» qəz., 2006, 19 aprel.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 30 iyun 2009-cu il tarixində yeni «Bədən tərbiyəsi və idman haqqında Azərbaycan Respublikasının Qanun»u imzaladı.[1]

«Bədən tərbiyəsi və idman haqqında Azərbaycan Respublikasının Qanununa əlavələr edilməsi barədə» Azərbaycan Respublikasının 31 may tarixli 1019.IIIQO – nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikasının Prezidentinin Fərmanı müvafiq sahədə hüquqi bazanın yaradılmasının daha bir əhəmiyyətli sənədi oldu. İkinci yarımfəsildə bədən tərbiyəsi və idmanın maddi-texniki bazasının möhkəmləndirilməsindən bəhs edilir. Göstərilir ki, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi yaradıldıqdan sonra Azərbaycan idmanının maddi-texniki bazasının yaradılması üçün də əməli addımlar atıldı. «Azərbaycan Respublikası əhalisi arasında sağlam həyat tərzinin təbliğ edilməsi və bədən tərbiyəsinin maddi-texniki bazasının inkişaf etdirilməsi, bu sahədə ümumxalq yardımının təşkil olunması məqsədi ilə, gənclərin idmana marağını artırmaq və Azərbaycan idmanının beynəlxalq miqyasa çıxması üçün real zəmin yaratmaq zərurətini nəzərə alaraq» Azərbaycan Respublikası Prezidentinin 5 mart 1995-ci il tarixli fərmanı ilə Azərbaycan Respublikası Prezidenti yanında İdman Fondu yaradıldı. Bu fərman Azərbaycan idmanının maddi-texniki bazasının yaradılması üçün böyük bir özül yaratmış oldu. Qeyd edək ki, 1997-ci ildə Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin rəhbərliyinə İlham Əliyevin gəlməsi ilə ölkədə idmanın sürətli inkişafında və onun maddi-texniki bazasının vəziyyətində əsaslı dönüş yarandı.

Azərbaycan Milli Olimpiya Komitəsi ölkə idmanının maddi-texniki bazasının yaradılması və inkişafı üçün iki istiqamətdə iş görmüşdür: 1. Azərbaycan Milli Olimpiya Komitəsinin maddi-texniki bazasını yaratmaq; 2. Mövcud idman qurğularını yenidən qurmaq, onların bərpasını və avadanlıqla təchizatını təmin etmək olmuşdur. Milli Olimpiya Komitəsi 1999-cu ildən öz obyektlərinin tikintisinə başlamış və artıq 2000-ci ilin oktyabrında Bakıda ilk Olimpiya kompleksinin açılış mərasimi olmuşdur. 2000-2002-ci illərdə Azərbaycanda 5 Olimpiya İdman Kompleksləri istifadəyə verilmiş, 2003-2012-ci illərdə isə onların sayı 25-ə çatmışdır. Araşdırılan dövrdə Azərbaycan Milli Olimpiya Komitəsi idmanın müxtəlif növlərinin inkişafı ilə bağlı xüsusi idman meydançaları tikdirmişdir: Bakıda stend atıcılığı üçün idman qurğusu, otüstü xokkey stadionu, çimərlik voleybolu meydançası, basketbol, həndbol, taekvondo, qılıncoynatma zallarının tikintisi bu qəbildən olan işlərdəndir.[2]

Respublikamızda nəşr olunan «Olimpiya» adlı ilk idman jurnalının birinci sayı 1998-ci ildə, «Olimpiya dünyası» qəzeti isə 2001-ci ildə isə işıq üzü görmüşdür.[3]

---

[1] Bədən tərbiyəsi və idman haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı: 2009, 60 s.

[2] Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin Cari Arxivi. Ümumi şöbənin 2003-2013-cü illərə aid materialları, v.27-28, 30.

[3] Müstəqil ölkə və Olimpiya hərəkatı. «Olimpiya dünyası» qəz., 2003, 10 iyun.

2005-ci il martında Prezident İlham Əliyev tərəfindən 5 martın «Bədən tərbiyəsi və idman günü kimi təsis edilməsi haqqında» imzaladığı sərəncamı, bu sahədə «Əməkdar bədən tərbiyəsi və idman xadimi» fəxri adının təsis edilməsi haqqında» fərmanı idman sahəsində çalışanlara dövlət səviyyəsində qayğının göstəricisi olmuşdur.[1]

Azərbaycan Respublikası Prezidentinin 22 yanvar 2008-ci il tarixli «Azərbaycanda Olimpiya Hərəkatı və İdman Muzeyinin yaradılması haqqında» sərəncamı da xüsusi əhəmiyyət kəsb edir.

2011-2013-cü illərdə ölkənin şəhər və rayonlarında bədən tərbiyəsi və idmanın maddi-texniki bazasının inkişaf etdirilməsi, möhkəmləndirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması davam etdirilmişdir. Bunlara Tofiq Bəhramov adına Respublika Stadionunun əsaslı təmiri, Bakı şəhərində müasir Konsert-İdman Kompleksi və Bakı şəhəri ərazisində Su İdmanı Sarayının inşası aiddir. Bu tədbirlər 2012-2013-cü illərdə regionlarda da davam etdirilmiş, 2013-cü ilin sentyabrında Masallıda Regional Taekvondo Mərkəzinin və Qubada Azərbaycan Milli Qolf Klubunun açılışı olmuşdur.[2]

Üçüncü yarımfəsildə İlham Əliyevin Milli Olimpiya Hərəkatının genişlənməsi sahəsində fəaliyyəti işıqlandırılır. Azərbaycanda bədən tərbiyəsinin təşkili, idmanın inkişafı üzrə dövlət siyasətinin və strategiyasının işlənib hazırlanması, həyata keçirilməsində prioritet istiqamətlərdən biri Milli Olimpiya Komitəsinin yaradılması və bu komitənin irimiqyaslı fəaliyyəti olmuşdur.1992-ci ildə yaradılan Azərbaycan Milli Olimpiya Komitəsi 10 mart 1992-ci ildə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində qeydiyyata alınmaqla hüquqi status əldə etdi. Milli Olimpiya Komitəsinin 1997-ci ilin 31 iyulunda keçirilmiş növbəti Baş Məclisi Komitənin yeni idarə heyətini və fəaliyyət istiqamətlərini müəyyənləşdirdi, İlham Əliyev Milli Olimpiya Komitəsinin prezidenti seçildi.[3]

Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin (ARMOK) 24 mart 2001-ci ildə keçirilmiş Baş Məclisində qəbul edilmiş Nizamnamədə Komitənin məqsəd və vəzifələri, öhdəlikləri, başlıca fəaliyyət istiqamətləri öz əksini tapmışdır.[4] Azərbaycan qanunları əsasında yaradılmış ictimai birlik formasında müstəqil qeyri-hökumət təşkilatı olan ARMOK-un Nizamnaməsində xüsusi olaraq qeyd edilir ki, Komitə siyasi və dini məsələlərdə neytral mövqe tutur, siyasi, dini, cinsi, etnik və irqi mənsubiyyətə görə ayrı-seçkiliyə yol vermir, öz işini demokratiya, üzvlərinin hüquqi bərabərliyi və könüllülüyü prinsipləri üzərində qurur (maddə 1.2).[5] Nizamnamənin 2-ci

---

[1] İsmayılov İ. Ölkə idmanı hərtərəfli inkişaf yolundadır. «Respublika» qəz., 2009, 5 mart.

[2] Prezident İlham Əliyev Masallıda Taekvondo və Boks mərkəzlərinin açılışlarında iştirak etmişdir // "Xalq qəzeti", 6 sentyabr 2013-cü il

[3] Milli Olimpiya Komitəsinin tarixi // https://www.noc-aze.org/az/about/history

[4] Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin rəsmi web səhifəsi // https://www.noc-aze.org/az

[5] Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin rəsmi web səhifəsi // https://www.noc-aze.org/az

və 3-cü maddələrində ARMOK-un məqsədi və vəzifələri göstərilir.

Milli Olimpiya Komitəsinin prezidenti seçildikdən sonra İlham Əliyevin diqqət yetirdiyi ən vacib məsələlərdən biri – Azərbaycan idmançılarının sosial təminatının yüksək səviyyədə təşkil edilməsi və dünya standartlarına uyğunlaşdırılması məsələsi oldu. 1998-ci il dekabrın 26-da MOK İcraiyyə Komitəsinin iclasında Azərbaycan idmançıları ilin yekunlarına görə mükafatlandırıldı və həmin vaxtdan da MOK perspektivli idmançılara xüsusi təqaüdlər verməyə başladı.[1] Milli Olimpiya Komitəsinin fəaliyyətindəki yeni mərhələnin ən bariz göstəricisi 2000-ci il Sidney Yay Olimpiya Oyunlarında Azərbaycanın fəal iştirakı və böyük uğurları oldu.

Milli Olimpiya Komitəsinin və Gənclər, İdman və Turizm Nazirliyinin birgə fəaliyyəti sayəsində Azərbaycan 2004-cü ildə keçirilən XXVIII Afina Yay Olimpiya Oyunlarına tam şəkildə hazırlaşa bildi. 2008-ci ildə Pekində keçirilən XXIX Yay Olimpiya Oyunları Azərbaycanın ən uğurlu idman hadisəsi olmuş, Azərbaycan idmançıları əldə etdikləri 7 medalla ilk 30 komanda sırasına düşə bilmişlər.[2]

2012-ci ildə Londonda keçirilən XXX Yay Olimpiya Oyunlarında Azərbaycanı 16 idman növündə 53 idmançı təmsil etmişdir. Olimpiya oyunlarında Azərbaycan idmançıları 10 medal, o cümlədən 2 qızıl, 2 gümüş və 6-ı bürünc medal qazanmışdır.

Azərbaycanda Olimpiya hərəkatının və idmanın qısa müddətdə belə sürətli inkişafı Milli Olimpiya Komitəsinə İlham Əliyevin rəhbərliyi sayəsində reallığa çevrilmişdir. Beynəlxalq Olimpiya Hərəkatının inkişafında müstəsna xidmətləri yüksək qiymətləndirilmiş və o, beynəlxalq Olimpiya Komitəsinin ən ali mükafatı olan «Olimpiya Ordeni» ilə təltif edilmişdir. Bu gün Azərbaycan Beynəlxalq Olimpiya Hərəkatının fəal üzvüdür. Azərbaycanın dövlət başçısı İlham Əliyevin başçılıq etdiyi MOK Beynəlxalq Olimpiya Komitəsinin ən nüfuzlu üzvlərdən biridir.

1997-ci ildə İlham Əliyevin Milli Olimpiya Komitəsinin prezidenti seçilməsi ilə Azərbaycanda bədən tərbiyəsi və idman özünün əsil tərəqqi mərhələsinə qədəm qoydu. Bununla əlaqədar İlham Əliyev vurğulayırdı: «Mənim də həyatımın bir hissəsi idmanla bağlıdır. 1997-ci ildə Azərbaycanın idman ictimaiyyəti mənə etimad göstərdi, Olimpiya Komitəsinin prezidenti vəzifəsini seçdi və gördüyünüz kimi, bu vəzifəni bu günə qədər icra edirəm. Düzdür, dünyada belə təcrübə var ki, dövlət başçısı, eyni zamanda Olimpiya Komitəsinin prezidenti olsun. Amma deyə bilərəm ki, əksər hallarda onlar dövlət başçısı olandan sonra Olimpiya Komitəsinin prezidenti olurlar. Mən isə əksinə, idmandan dövlət başçısı vəzifəsinə gəlmişəm. Ona görə, demək olar ki, ölkə prezidenti idmançıla-

---

[1] 10 il öncə başlayan yol. Sənədli publisistika. Bakı: Azərbaycan Respublikası Gənclər və İdman nazirliyinin nəşri, 2007, 256 s., s.28-29

[2] Pekin Yay Olimpiya oyunları Azərbaycan yığma komandası üçün uğurlu olmuşdur // http://azertag.az/xeber/-416894

rın nümayəndəsidir. Belə desək, səhv etmərik».[1]

Dissertasiyanın **«Azərbaycan Respublikasında bədən tərbiyəsi və idmanın kütləviləşdirilməsi»** adlı ikinci fəsli üç yarımfəsildən ibarətdir. Birinci yarımfəsildə göstərilir ki, bədən tərbiyəsinin və idmanın müxtəlif növlərinin ölkədə inkişaf etdirilməsi, bədən tərbiyəsinin kütləviləşdirilməsi də ümdə məsələlərdən biridir. Araşdırılan dövrdə Azərbaycanda idmanın müxtəlif növləri: atıcılıq, avarçəkmə, basketbol, boks, cüdo, futbol, həndbol, gimnastika, güləş, kikboksinq, pauerliftinq, sambo, tennis, voleybol, üzgüçülük, şahmat və digərləri geniş yayılmışdır. Ölkədə bir sıra idman növləri üzrə peşəkar idmançılar və böyük idman məktəbləri fəaliyyət göstərir. 2015-ci ildə Azərbaycanda 64 idman növü üzrə baza var, 53 idman Federasiyası, 66 idman təşkilatı, 60 idman klubu, 170 idman məktəbi fəaliyyət göstərir. Federasiyalardan 23-ü olimpiya idman növünü, 36-sı qeyri-olimpiya idman növünü inkişaf etdirir. Bu illər ərzində ölkə yeniyetmələri dünya və Avropa çempionatlarında 70 medal qazanmışlar. Bu gün də Azərbaycanda Olimpiya növlərinə daxil olan Avropa, dünya çempionatları, bədii gimnastika, taekvando, güləş, boks, karate və s. üzrə beynəlxalq idman yarışları keçirilir, yeniyetmələr arasında beynəlxalq yarışların, qitə və dünya çempionatlarının keçirilməsi üçün əhəmiyyətli işlər görülür.

İkinci yarımfəsildə əhalinin kütləvi idmanla əhatə olunması məqsədilə görülən işlər təhlil olunur. Ulu öndər Heydər Əliyevin dediyi kimi, «... millətin, xalqın sağlamlığını, kütləvi sağlamlığı təmin etmək üçün idman, bədən tərbiyəsi əvəzsiz bir vasitədir».[2]

Müstəqil Azərbaycanda bədən tərbiyəsi və idmanın kütləviləşdirilməsi və geniş yayılması dövlətin xüsusi diqqət mərkəzində olmuşdur. Bu prosesdə Milli Olimpiya Komitəsi başlıca təşkilatçı orqan kimi mühüm rol oynayırdı. 2000-ci illərin əvvəllərindən başlayaraq MOK tərəfindən Azərbaycan vətəndaşlarının idman tədbirlərinə fəal qatılması, ölkədə fiziki tərbiyə işlərinin müasir tələblərə uyğun qurulması üçün ardıcıl tədbirlər həyata keçirilmişdir. Bu yolda dövlətin, xüsusilə Gənclər və İdman Nazirliyinin və MOK-un fəaliyyətinin üç başlıca istiqaməti aşağıdakılardır: 1. Hüquqi-normativ istiqamət. 2. Texniki fəaliyyət. 3. Praktik istiqamət (müxtəlif idman yarışlarının və tədbirlərinin keçirilməsi və vətəndaşların bu prosesə fəal şəkildə qatılmasının təmin edilməsi).

Göstərilən dövrdə Azərbaycanda bədən tərbiyəsinin və idmanın kütləviləşdirilməsi üçün dövlət siyasəti ardıcıl həyata keçirilmişdir. Ölkədə idmanın kütləviləşdirilməsi yolunda ən vacib texniki tədbirlər, xüsusilə regionlarda yeni idman qurğularının ən müasir standartlara uyğun inşası olmuşdur. Bu dövrdə yaradılan yeni idman kompleksləri bədən tərbiyəsi və idmanın ölkədə kütləviləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb etmişdir. 1997-2003-cü illərdə ölkədə respublika və beynəlxalq əhəmiyyətli

---

[1] Zirvəyə aparan yol. Azərbaycan Respublikası Prezidentinin idmanla bağlı nitqləri, çıxışları, qəbulları, görüşləri və müsahibələri (1993-2009-cu illər). Bakı: Şərq-Qərb, 2009, 576 s.

[2] Müstəqilliyimiz əbədidir. Üçüncü kitab, s. 228.

idman yarışlarının keçirilməsi üçün hər cür şəraiti təşkil edən Azərbaycan Milli Olimpiya Komitəsinin bu istiqamətdə fəaliyyəti çoxşaxəli olmuşdur.

2000-ci illərin ortalarından başlayaraq Olimpiya idman qurğularının coğrafiyası genişlənməyə başlamışdır. Bu dövrdə bəzi bölgələrdə zona prinsipinin nəzərə alınmasına üstünlük verilmişdir. Sonrakı illərdə isə universal böyük idman qurğularının tikilməsi başlanmışdır.[1] Bundan əlavə, regionlarda müxtəlif idman növləri üzrə kiçik və orta məşq zallarının salınması da 2000-ci illərin ortalarında səciyyəvi olmuşdur.

2009-cu il də Azərbaycan idmanı üçün əlamətdar il sayılmalıdır. Həmin il Uşaq ili elan edilmişdir. Bu sahəyə ölkədə xüsusi diqqət yetirilmişdir.[2] 2009-cu ildə Azərbaycanda idmanın kütləviləşməsi və inkişafı yolunda 11 respublika səviyyəli spartakiada və 90 kütləvi idman tədbiri təşkil olunmuşdur, o cümlədən, ali təhsil məktəblərinin tələbələri arasında idmanın cüdo, basketbol, həndbol, şahmat, dama, voleybol, badminton, atletika, üzgüçülük növləri üzrə respublika çempionatı keçirilmişdir.

Üçüncü yarımfəsildə Azərbaycanda Respublikasında idmanın kütləviləşdirilməsi işində tədris və məktəbəqədər tərbiyə müəssisələrində bədən tərbiyəsinin və idmanın təşkili məsələləri təhlil edilir.

Göstərilir ki, «Bədən tərbiyəsi və idman haqqında» Azərbaycan Respublikasının Qanununda «Təhsil və səhiyyə sistemində, vətəndaşların iş, yaşayış və istirahət yerlərində bədən tərbiyəsi və idmanın təşkili» adlı 4-cü fəsildə təhsil müəssisələrində idmanın inkişaf etdirilməsi məsələləri öz əksini tapmışdır. «Qanun»un 17-ci maddəsinə görə məktəbəqədər yaşlı uşaqların, şagirdlərin və tələbələrin sağlamlığını qorumaq və möhkəmləndirmək, onlarda fiziki kamilliyə və sağlam həyat tərzinə tələbatı formalaşdırmaq təhsil müəssisələrinin əsas vəzifələrindəndir. Qeyd edilən dövrdə təhsil müəssisələrində bədən tərbiyəsi dərsləri müasir tələblərə müvafiq surətdə, təhsil alan uşaq və gənclərin maraqları, yaşı və sağlamlıq səviyyələri nəzərə alınmaqla təşkil edilməlidir. Təhsil müəssisələrində bədən tərbiyəsi dərslərinin metodoloji və maddi-texniki bazası müntəzəm olaraq inkişaf etdirilmiş, təkmilləşdirilmiş və möhkəmləndirilmişdir.

Azərbaycanda aparılan quruculuq işləri həm təhsil, həm də idman sahəsinin inkişafında da böyük rol oynayırdı. Bu dövrdə ölkənin bütün regionlarında ümumtəhsil məktəblərinin tikintisi və əsaslı təmiri həyata keçirilmiş və ümumtəhsil məktəbləri, həmin məktəblərdə hər cür təminatla təchiz olunmuş müasir idman zalları da istifadəyə verilmişdir. Məktəblərin müxtəlif idman yarışlarında iştirakının təmin edilməsi bir tərəfdən, uşaqların və gənclərin fiziki tərbiyəsinin və mənəviyyatının yüksəldilməsinə, digər tərəfdən, Azərbaycan gəncliyinin beynəlxalq

[1] Rzalı R. Dövlətin idman siyasəti // «Azərbaycan» qəz., 2007, 15 iyul.
[2] Rəhimov A. Ölkəmizdə bədən tərbiyəsi və idmanın kütləviləşməsi, geniş yayılması xüsusilə diqqət mərkəzindədir // «Olimpiya dünyası» qəz., 2009, 11-13 avqust.

aləmdə tanınmasında böyük rol oynamışdır.[1]

Təhsil müəssisələrində uşaq, yeniyetmə və gənclərin bədən tərbiyəsi və idmanla məşğul olmaları üçün mühüm tədbirlər görülmüşdür. İdmançılar əvvəllər 14-15 yaşından yarışlarda iştirak edirdilərsə, indi onlar artıq bəzi idman növləri üzrə 12 yaşından yarışlara qatıla bilərlərdi: 3 il ərzində yeniyetmə idmançılar müəyyən yarış təcrübəsi əldə edərək, dünya arenalarında keçirilən turnirlərdə yüksək göstəricilər qazanmaq imkanı əldə etdilər. Bu dövrdə uşaq-gənclər idman məktəblərində idmanın müxtəlif növləri üzrə yeni bölmələrin açılması idmanın kütləviləşməsində müsbət rol oynamışdır.

Dissertasiya işinin **«Azərbaycan Respublikasının beynəlxalq əlaqələrində idmanın rolu»** adlı üçüncü fəsli iki yarımfəsildən ibarətdir. Birinci yarımfəsildə Azərbaycan idmançılarının beynəlxalq idman yarışlarında iştirakı və qazandığı uğurlar təhlil edilir. Qeyd edilir ki, Azərbaycan Respublikasında bədən tərbiyəsinin və idmanın hüquqi-normativ bazasının yaradılması və maddi-texniki təchizatının müasir dünya standartlarına uyğun təşkili ölkə idmançılarının beynəlxalq arenada iştirakına və böyük uğurlar əldə etməsinə imkan yaratmışdır.

1994-cü ildə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin, 1997-ci ildə isə Milli Olimpiya Komitəsinin təşkili və «Bədən tərbiyəsi və idman haqqında Azərbaycan Respublikasının Qanunu»nun qəbulu ölkədə bədən tərbiyəsi və idman sahəsində münasibətləri tənzimləməklə yanaşı, Azərbaycan Respublikasının beynəlxalq idman arenasında dövlət siyasətini müəyyənləşdirdi, xüsusi idman strategiyasını formalaşdırdı. 1993-2013-cü illər ərzində Azərbaycanın beynəlxalq idman yarışlarında iştirakı və əldə etdiyi nəhəng uğurlar məhz bu strategiyanın həyata keçirilməsi nəticəsində mümkün oldu. Azərbaycan idmançıları beynəlxalq miqyaslı yarışlarda çıxış edərək Olimpiya oyunlarına müxtəlif sayda lisenziyalar qazandı.

İdmançılarımız beynəlxalq miqyaslı yarışlarda layiqincə çıxış edərək Olimpiya oyunlarına 12 lisenziya qazanmışlar. Ölkənin 31 nəfər idmançısı 10 idman növü üzrə 2000-ci il XXVII Yay Olimpiya Oyunlarına vəsiqə qazanaraq Azərbaycanın ikinci dəfə müstəqil dövlət kimi Olimpiadada iştirakını təmin etmişlər. Bu yarışlarda Azərbaycan idmançıları yüksək idman nəticələri göstərmişlər.

2004-cü ildə müasir Olimpiya oyunlarının vətəni Yunanıstanın baş şəhəri Afinada keçirilən XXVIII Yay Olimpiya Oyunlarında Azərbaycanın 5 idmançısı medal əldə etdi: Fərid Mansurov (Yunan-Roma güləşi üzrə) çempion zirvəsinə yüksəldi, Zemfira Meftahətdinova (stend atıcılığı üzrə), İradə Aşumova (güllə atıcılığı üzrə), Ağası Məmmədov və Fuad Aslanov (hər ikisi boks üzrə) bürünc medal qazandılar.[2]

---

[1] Rəhimov A. Ölkəmizdə bədən tərbiyəsi və idmanın kütləviləşməsi, geniş yayılması xüsusilə diqqət mərkəzindədir // «Olimpiya dünyası» qəz., 2009, 11-13 avqust.

[2] Bayramov O. Azərbaycan idmançıları Olimpiya hərəkatında // «Respublika» qəz., 2012, 6 mart.

Azərbaycanın dördüncü dəfə müstəqil dövlət olaraq iştirak etdiyi XXIX Yay Olimpiya Oyunları da ölkə idmançıları üçün uğurlu olmuşdur. Pekində keçirilən XXIX Yay Olimpiya oyunlarında 11 idman növündə 44 nəfər Azərbaycan idmançısı iştirak etmişdir. Oyunlarda Azərbaycan idmançıları böyük ustalıq və məharət nümayiş etdirdilər və 1 qızıl, 2 gümüş və 4 bürünc medal qazandılar. Qeyd edək ki, 2000-ci ildə Sidneydə keçirilən Olimpiya yarışlarında 3 medal, 2004-cü ildə isə Afinada 5 medal qazanmışdılar. 2008-ci ildə isə medalların sayı 7 oldu.

Azərbaycan idmanın beynəlxalq uğurları 2009-cu ildə daha da artmış, həmin ildə 358 beynəlxalq turnirdə Azərbaycanın 4296 idmançısı qüvvəsini sınamışdır. Onlar 619 medal qazanmışlar ki, bu da 2008-ci illə müqayisədə 69 medal çoxdur. Olimpiya idman növlərində isə 37 medallıq artım müşahidə edilmişdir. Qazanılmış medalların 50 faizi qızıl olmuşdur.[1]

2009-cu ilin yekunlarına dair MOK tərəfindən təşkil olunmuş mərasimdə Prezident İlham Əliyev Azərbaycan cüdoçularının qazandıqları qələbənin xüsusi əhəmiyyətini vurğulayaraq demişdir: «Onlar çox ağır psixoloji şəraitdə (yarışın İrəvanda keçirilməsi səbəbilə - G.A.) cüdo üzrə Avropa çempionatından vətənə böyük qələbə ilə qayıtmışlar. Xüsusilə nəzərə alsaq ki, bu yarış İrəvanda keçirilirdi, əlbəttə, başa düşmək çətin deyil ki, idmançılarımızın çiyinlərinə böyük və məsuliyyətli yük düşmüşdü. O adi yarış deyildi, Azərbaycan idmançıları ilk dəfə olaraq Ermənistanda yarışlarda iştirak edirdilər və çox uğurla iştirak etdilər. Azərbaycan Avropa çempionatında 5 idmançı ilə iştirak edirdi və beşi də vətənə medal gətirdi, beşi də Azərbaycanın Dövlət Bayrağını İrəvanda ucaltdı. Eyni zamanda, bir dəfə Azərbaycanın dövlət himni İrəvanda səsləndi. Bu, böyük qəhrəmanlıqdır, böyük tarixi nailiyyətdir. Bu, Azərbaycan idmanının, Azərbaycan gəncliyinin, Azərbaycan dövlətinin zəfəri, təntənəsi idi».[2]

2011-ci ildə Azərbaycan idmançılarının uğurları beynəlxalq aləmdə ölkənin nüfuzunun artmasında çox böyük rol oynamışdır. 2011-ci ildə Azərbaycan idmançıları 139 dünya və qitə birinciliyi və çempionatına, 39 dünya kuboku, 18 Avropa kuboku, 12 qran-pri yarışlarına və 67 beynəlxalq turnirə ezam edilmişlər.

2013-cü ildə müxtəlif miqyaslı yarışlarda, dünya və Avropa çempionatlarında, Ümumdünya Universiadasında, İslam Həmrəyliyi Oyunlarında və digər mötəbər startlarda Azərbaycan idmançıları üst-üstə ölkəmiz üçün rekord göstərici olan 782 medal qazanmışlar. Qazanılan 782 medaldan 296-sı, o cümlədən 101 qızıl mükafat olimpiya növləri üzrə yarışlarda,

[1] Azərbaycan Olimpiya hərəkatında fəal iştirak edir. Ölkəmizdə idmanın inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindəndir // «Səs» qəz., 2010, 31 avqust.

[2] Bədən tərbiyəsinin və idmanın inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindəndir // «Azərbaycan» qəz., 2010, 29 avqust.

486-sı qeyri-olimpiya növləri üzrə turnirlərdə əldə olunmuşdur.[1]

Azərbaycan idmançılarının 2003-2013-cü illərdə beynəlxalq arenalarda qazandıqları nailiyyətlər təkcə ölkənin idman həyatının uğuru deyil, eyni zamanda beynəlxalq münasibətlər sistemində nüfuzunun yüksəlməsinə xidmət etmişdir.

İkinci yarımfəsildə Azərbaycanın beynəlxalq yarışların mərkəzi kimi rolu araşdırılmışdır. Göstərilir ki, 1990-cı illərin ortalarınadək Azərbaycanda hər hansı bir nüfuzlu idman yarışının keçirilməsi mümkün deyildi, beynəlxalq federasiyalar bunun üçün ölkədə zəruri idman təchizatının və hüquqi bazanın olmadığını göstərirdilər. 1990-cı illərin ortalarından başlayaraq Azərbaycanın beynəlxalq idman yarışlarında müvəffəqiyyətlə çıxış etməsi və böyük qələbələrə imza atması ölkənin beynəlxalq nüfuzunu artırdı.

1997-ci ildə Azərbaycan MOK-un rəhbərliyinə İlham Əliyevin gəlməsi ilə beynəlxalq idman federasiyaları qitə və dünya çempionatlarının Azərbaycanda keçirilməsi ilə bağlı müraciətlər etməyə başladılar. MOK ölkədə beynəlxalq yarışların əsas təşkilatçılarından biri oldu. Əgər 1998-2000-ci illərdə Azərbaycanda 3 beynəlxalq turnir və 1 Avropa çempionatı keçirilmişdisə, 2001-2004-cü illərdə ölkədə 3 Olimpiya təsnifat turniri, 4 dünya çempionatı, 3 Avropa çempionatı, Dünya kuboku, Avropa kuboku, 2 dünya kubokunun mərhələ yarışı, Dünya və Avropa çempionatlarının seçmə mərhələ turnirləri, müxtəlif idman növləri üzrə 16 beynəlxalq turnir keçirilmişdir.

2005-2007-ci illərdə keçirilmiş beynəlxalq yarışların həm sayında, həm də mötəbərliyində artım xüsusilə müşahidə olunmağa başladı. 2007-ci ildə Azərbaycanın idman tarixində ilk dəfə olaraq Bakıda bədii gimnastika üzrə Avropa çempionatı, sərbəst güləş, Yunan-Roma güləşi və qadın güləşi üzrə Pekin Olimpiadasına lisenziya xarakterli dünya çempionatı keçirilmişdir. Bədii gimnastika üzrə Avropa çempionatının Bakıda keçirilməsi böyük əks-səda yaratdı. Çempionat günlərində Avropa Gimnastika İttifaqının prezidenti Dimitrios Dimitripoulosun dediyi sözləri də unutmaq olmaz: «Mən heyranam! Avropa çempionatları tarixində ilk dəfə olaraq ölkə Prezidenti yarışlara təşrif buyurur. Bu cür tədbirlərin dövlət səviyyəsində dəstəklənməsi isə çox vacibdir. Mən Prezident İlham Əliyevə yarışa göstərdiyi böyük dəstəyə görə minnətdarlığımı bildirirəm. Əgər növbəti Avropa çempionatını harada keçirmək istədiyimizi soruşsalar, mən səmimi qəlbdən bunun yenidən Azərbaycanda təşkil olunmasını istərdim».[2]

Azərbaycanın daha böyük beynəlxalq idman yarışlarına ev sahibliyi etməsi imkanlarını nəzərə alaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 8 sentyabr 2011-ci il tarixli «Bakı şəhərinin 2020-ci ilin Yay Olimpiya Oyunlarını keçirmək üçün namizədliyinin irəli sürülməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi üzrə Təşkilat Komitəsinin yaradılması barədə» Sərəncam imzalamışdır.

---

[1] Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin Cari Arxivi. Ümumi şöbənin 2003-2013-cü illərə aid materialları, v.14-15.

[2] Bayramov O. Olimpiya ilinə böyük ümidlərlə // «Xalq qəzeti», 2008, 13 yanvar.

2011-ci il Azərbaycanın həm idman, həm mədəniyyət həyatında beynəlxalq əlaqələrinin yüksəliş ili olmuşdur ki, bu yüksəlişdə respublikanın siyasi və iqtisadi inkişaf göstəriciləri böyük rol oynamışdır. Belə ki, Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi bu yüksəlişin başlanğıc mərhələsi olmuşdur. 2011-ci ildə Azərbaycan 42 beynəlxalq idman tədbirinə, o cümlədən dünya və Avropa çempionatlarına ev sahibliyi etmişdir.[1]

2012-ci il dekabrın 8-də Avropa Olimpiya Komitəsinin Baş Assambleyasında 2015-ci ildə ilk Avropa Olimpiya Oyunlarının Azərbaycanda keçirilməsi haqqında qərar qəbul edildi. Respublikanın prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, «Bakı şəhəri birinci oyunların keçirilməsində böyük xidmətlərinə görə Avropa Olimpiya Oyunlarının tarixinə daxil ediləcəkdir».[2]

İlk Avropa Olimpiya Oyunlarının Azərbaycanda keçirilməsi haqqında qərarın qəbul edilməsində Azərbaycan idmanının rolunu səciyyələndirən Prezident İlham Əliyev bu amilin də böyük əhəmiyyətini göstərmişdir: «Azərbaycan bu gün dünyada və Avropada idman dövləti kimi tanınır. Bizim uğurlarımız həm beynəlxalq yarışlarda əldə etdiyimiz medallarla ölçülür, eyni zamanda, Azərbaycanda, Bakıda yaradılmış müasir idman infrastrukturu da uğurlarımızı tamamlayır. Buna Azərbaycanda və Bakıda keçirilmiş dünya, Avropa çempionatlarını əlavə etsək, görərik ki, doğrudan da Azərbaycanda idman uğurla, sürətlə inkişaf edir. İdmanın kütləviliyi təmin edilir və Azərbaycanda Olimpiya hərəkatı çox yüksək səviyyədədir».[3]

Sonrakı illərdə Azərbaycan bir sıra mötəbər beynəlxalq yarışlara ev sahibliyi etmişdir. 2015-ci ildə Dünya Kuboku və 2016-cı ildə Beynəlxalq Şahmat Olimpiadası Bakıda keçirildi. Bakı şəhərində 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunları keçirilmişdir. 2014-cü ildə Azərbaycan Dünya İdman Mətbuatı Assosiasiyasının (AİPS) növbəti konqresinə də ev sahibliyi etmişdir.[4]

Bütün bu beynəlxalq əhəmiyyətli tədbirlər, yarışlar, beynəlxalq idman federasiyalarının müvafiq qərarları Azərbaycanın beynəlxalq əhəmiyyətini artırmağa xidmət etməklə yanaşı, bu ölkəni dünyanın aparıcı idman mərkəzlərindən birinə çevirmişdir.

Dissertasiyanın «Nəticə» hissəsində aparılan elmi araşdırmalara, əldə edilmiş elmi nəticələrə yekun vurulmuşdur.

---

[1] Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin Cari Arxivi. Ümumi şöbənin 2003-2013-cü illərə aid materialları, v. 37.

[2] Prezident İlham Əliyev Avropa Olimpiya Komitəsinin 2015-ci ildə birinci Avropa Olimpiya Oyunlarının Bakıda keçirilməsi ilə bağlı qərarı münasibətilə Azərbaycan xalqını təbrik etmişdir // http://azertag.az/xeber/195684 AzərTac 10 dekabr 2012

[3] Prezident İlham Əliyev Avropa Olimpiya Komitəsinin 2015-ci ildə birinci Avropa Olimpiya Oyunlarının Bakıda keçirilməsi ilə bağlı qərarı münasibətilə Azərbaycan xalqını təbrik etmişdir // http://azertag.az/xeber/195684 AzərTac 10 dekabr 2012

[4] Azərbaycan idmanı əsl yüksəliş dövrünü yaşayır. Ölkəmizdə idmanın inkişafı sistemli xarakter daşıyır // «Yeni Azərbaycan» qəz., 2013, 6 mart.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı məqalələrində öz əksini tapmışdır:**

1. Azərbaycanda müasir gəncliyin formalaşmasında fiziki tərbiyənin və idmanın rolu. AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun «Elmi əsərləri». Bakı, 2012, s. 299-305
2. «Duxa qoca oğlu Dəli Domrul boyu»nda fiziki mədəniyyət motivləri». «Kitabi-Dədə Qorqud» və Türk dünyası. «Kitabi-Dədə Qorqud»un tərcüməsi və nəşrinin 200 illiyinə həsr olunmuş Beynəlxalq elmi konfransın materialları. Bakı, 2015, s.192-198
3. Azərbaycan Respublikası vətəndaşlarının bədən tərbiyəsi və idmanla əhatə edilməsi sahəsində dövlət tədbirləri (2003-2013-cü illər). «Tarix və onun problemləri» jurnalı. Bakı, 2015, s. 329-336
4. İlham Əliyevin Milli Olimpiya Hərəkatının genişlənməsi sahəsində fəaliyyəti. «Ulu Öndər Heydər Əliyev irsində multikultural və tolerant dəyərlər» Beynəlxalq Elmi Konfransın Materialları. Bakı, 2016, s.77-79
5. Организация физической культуры и спорта в образовательных и дошкольных учреждениях в Азербайджане. Международный научный журнал «Кавказ и Мир». Грузия, 2016, №21, с.235-240
6. Müasir Olimpiya Hərəkatının intibah və inkişafının ideoloji və fəlsəfi əsasları. Bədən Tərbiyəsi və İdman Akademiyasının Elmi əsərləri, s. 3-7
7. Yeniyetmələrin fiziki inkişafının formalaşdırılmasında məktəbdənkənar tədbirlərin təşkili. Azərbaycan Respublikasının Təhsil Nazirliyi. Bakı Slavyan Universiteti. Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. 2017, s.283-287 (Həmmüəllif prof.D.Q.Quliyev)
8. Müasir Olimpiya Hərəkatının inkişafının fəlsəfi əsasları. Naxçıvan Müəllimlər İnstitutu «Təhsil kurikulumları: praktik tətbiqlər». 19 aprel 2017, s.204-208 (Həmmüəllif prof. D.Q.Quliyev)
9. Развитие массовой физической культуре и спорта в Азербайджане в 1993-2003 гг. (istehsalatda)
10. Ümumtəhsil məktəblərində kütləvi bədən tərbiyəsi və idmanın inkişaf yolları // Azərbaycan Respublikasının Təhsil Nazirliyi. Bakı Dövlət Universiteti. Bakı, Təknur, 2017, 144 s. (Metodik vəsait)
11. Məktəb və məktəbəqədər müəssisələrdə fiziki tərbiyənin təşkili // Azərbaycan Respublikasının Təhsil Nazirliyi. Bakı Dövlət Universiteti. Bakı, Təknur, 2017, 160 s. (Metodik vəsait)
12. Azərbaycan Respublikasında idmanın maddi-texniki bazasının möhkəmləndirilməsinə dair (2003-2017-ci illər). AMEA Elmi əsərləri. 69-cu cild, 2018, s.209-219.
13. Развитие Национального Олимпийского Движения в Азербайджане (2003-2017-е гг.). Современная научная мысль. Москва, 2018, с. 148-154.
14. Gənclərdə hərbi bacarıq və vərdişlərin formalaşmasında hərbi idman oyunlarının rolu. Heydər Əliyev Azərbaycan Dövlətçiliyinin memarıdır. Respublika Elmi Konfransının materialları. 4 may 2018, s.24-25.

**Асланлы Г.М.**

**«Государственная политика Азербайджанской Республики в развитии физической культуры и спорта (2003-2013 гг.)»**


## РЕЗЮМЕ

Данная диссертация посвящена исследованию государственной политики Азербайджанской Республики в области развития физической культуры и спорта в 2003-2013 годах.

Диссертационная работа состоит из введения трёх глав, заключения и перечня использованной литературы.

В введении обоснована актуальность, уровень разработки и источниковедческая база темы, определены цели и задачи, сформированы научная новизна и практическая значимость диссертации.

I глава диссертации называется «Создание и развитие юридической и материально-технической базы физической культуры и спорта в Азербайджанской Республике». В этой главе исследуются юридические нормативы и материально-техническая база развития физической культуры и спорта. Особое место уделяется показу роли президента Ильхама Алиева в образовании и активизации деятельности Национального Олимпийского Движения.

Во II главе диссертации «Популяризация физической культуры и спорта в Азербайджанской Республике» рассматриваются вопросы развития различных видов спорта и физической культуры, меры, предпринятые государством для широкого охвата населения занятостью спортом.

В III главе «Роль спорта в международных связях Азербайджана» рассказывается в участии азербайджанских спортсменов международных соревнованиях и их успехах, о превращении Азербайджана в один из центров международных соревнований.

В заключительной части диссертации обобщены научные выводы, сделанные в процессе исследования, были проанализированы предложения и рекомендации, накопленный опыт в реализации спортивной политики, выдвинутые Азербайджанской Республикой в последующие годы.

**Aslanli G.M.**

## "State policy in the development of physical culture and sport in the Azerbaijan Republic (2003-2013)"

## SUMMARY

Dissertation shows that physical education and sports development in Azerbaijan Republic during 2003-2013 is the basic subject in the policy of the government. Dissertation consists of the Introduction, three chapters, Conclusion, a list of used sources and literature. The Introduction reflects the urgency, chronological framework, the level of studying of the problem, the source base, goals and objectives of the research, methodological bases, scientific innovation and practical importance of issue.

The first chapter of the dissertation is called «The establishment and development legal and material-technical base in the field of physical culture and sports in Azerbaijan Republic». In this chapter has been investigated physical education and sport in the legal, material and technical basis. At the same time, highlighted the expanded activities of Ilham Aliyev in the field of the National Olympic Movement.

Chapter second titled as «Popularization of physical culture and sports in Azerbaijan». This chapter is devoted to the development of physical culture and sport, coverage of citizens in physical education and sport, organization of physical education and sport educational and pre-school educational institutions.

The third chapter of the dissertation called «The role of sport in the international relations» describes the participation and achievements of Azerbaijani athletes in the international competitions and at the same time the issues of the transformation of Azerbaijan into one of the centers of international competitions.

In the Conclusion of the dissertation are summarized the scientific conclusions reached in the process of the research. The study analyzed proposals and recommendations in the implementation of sports policy put forward Azerbaijan Republic in subsequent years and accumulated experience.

Kağız formatı 60x84 - $^{1}/_{16}$
Tirajı 100 nüsxə

AMEA-nın mətbəəsində çap edilmişdir.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ИСТОРИИ им. А.А.БАКИХАНОВА**

*На правах рукописи*

**ГЮНЕЛЬ МОБИЛ гызы АСЛАНЛЫ**

# ГОСУДАРСТВЕННАЯ ПОЛИТИКА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ В РАЗВИТИИ ФИЗИЧЕСКОЙ КУЛЬТУРЫ И СПОРТА (2003-2013 гг.)

Специальность: 5503.02 – Отечественная история

# А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени
доктора философии по истории

**БАКУ – 2018**